**Salyanda qənnadı məhsullarının istehsalı sexində keçirilən yoxlamaya dair məlumat**

**(6 mart 2026)**

Salyan şəhəri, Ə.Qasımzadə küçəsi, ev 57 ünvanında, fiziki şəxs Əhmədov Samir Zehin oğluna məxsus fərdi yaşayış sahəsində fəaliyyət göstərən “Dəf Kimi” əmtəə nişanlı qənnadı məhsullarının istehsalı sexində Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları yoxlama keçirib.

Baxış zamanı qida obyektində bir sıra nöqsanlar aşkarlanıb. Belə ki, emal sahəsində havalandırma sisteminin quraşdırılmadığı, istifadə olunan suyun filtrdən keçirilmədiyi, xammal anbarının təşkil edilmədiyi və hazır məhsullar üçün sahənin ayrılmadığı, temperaturun monitorinqi və qeydiyyatının aparılmadığı və digər tələblərin pozulduğu müəyyən edilib.

Müəssisədə işlərin görülməsi və xidmətlərin göstərilməsi məhdudlaşdırılıb, fiziki şəxs barəsində inzibati protokol tərtib olunub.